# Güclü dövlət - milli ideyamızın təcəssümüdür

**Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, Milli Elmlər Akademiyasının akademiki Ramiz MEHDİYEVİN *"Güclü Azərbaycan dövləti qloballaşma şəraitində milli ideyanın təcəssümü kimi"* ("Respublika" qəzeti, 4 iyun 2016-cı il) məqaləsi, müəllifin bundan əvvəl yazmış olduğu bir sıra əsərləri kimi cəmiyyətimizin hazırki sosial-siyasi inkişaf məsələləri üçün müəyyən metodoloji istiqamət verir, qloballaşma şəraitində milli dövlətçiliyimizin möhkəmləndirilməsi yolunda yaşıl işıq yandırır. Ona görə də məqalənin öyrənilməsini, onun müddəalarının tətbiqini lazımlı sayırıq. Problem bir neçə rakursdan təhlil olunur:**

***–Müasir qloballaşmanın milli dövlətin inkişafına təsiri və bu spektrdə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi zərurəti;***

***–"Güclü dövlət" anlayışı və onun Azərbaycan Respublikasının timsalında izahı və şərhi; öyrənilməsi məsələləri;***

***–Dövlət ideologiyasına çevrilmiş azərbaycançılığın mahiyyəti və milli dövlət ideologiyasının yaranmasında və inkişafında vahid milli siyasi liderin rolu problemi;***

***–Lider və xalq, lider və dövlət və s.***

**Bütün bu problemlər bir küll halında ardıcıl olaraq, Azərbaycan və dünya reallıqları zəminində tədqiqata cəlb olunmuşdur.**

**Onu da deyək ki, bu məqalə müəllifin çapa hazırladığı yeni monoqrafiyanın bir hissəsini təşkil edir.**

* * *

Məsələ burasındadır ki, özünün müstəqil, suveren dövlətinə malik olmaq ideyası xalqımızı qədim zamanlardan indiyədək düşündürən əsas məsələlərdən biri olmuşdur. Xalqımız çoxəsrlik tarixi inkişafının müxtəlif mərhələlərində öz dövlətçiliyini yaratmış, onu qorumuş və indiki nəsillərə çatdıra bilmişdir. Azərbaycanın yaşadığı mürəkkəb geosiyasi şərait, regionda və dünyada gedən qlobal sosial-siyasi proseslər bizdən tələb edir ki, ən böyük sərvətimiz olan milli dövlətçiliyimizi daim möhkəmlədək və inkişaf etdirək.

Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri, Milli Elmlər Akademiyasının akademiki Ramiz Mehdiyevin çox haqlı olaraq qeyd etdiyi kimi, "qlobal proseslər müəyyən mənada milli dövlətlərə çağırışlardır. Qloballaşmanın həyatımıza nə isə bir yenilik əlavə edəcəyinə aludə olmaq yox, onu hələ tam dərk etmədiyimizin nəticələri haqda düşünmək lazımdır. Bir məsələyə əsla şübhə yoxdur ki, qloballaşma beynəlxalq ictimaiyyətin Qərb mədəniyyəti və kapitalizm cəmiyyəti prinsipləri əsasında homogenezləşdirilməsi (yekcinsləşdirilməsi) prosesidir. Eyni zamanda, milli dövlətlərin rolunun və funksiyalarının dəyişməsi (nivelirlənməsi) qloballaşmanın ən mühüm məqsədlərindən biridir".

Ona görə də qloballaşmanın guya nədəsə milli dövlətlərə dəstək ola biləcəyi fikrinə arxayın olub milli dövləti demokratiyanın axarına buraxmaq olmaz. Xüsusən o halda ki demokratiyanın milli dövlətlərin gələcək taleyində nə kimi rol oynayacağı məsələsi də hələ sual altındadır. Hazırda alimlər və siyasətçilər demokratiyanın "üçüncü dalğası" və onun "zəfər yürüşü", "dünyanın sonu" və s. kimi dəbdəbəli şüarlar haqqında heç də əvvəllərdə olduğu kimi ağız dolusu danışmır, bu məsələlərdən söhbət gedəndə bir qədər ehtiyatlı olmağa çalışırlar. Hazırda bu liberal demokratiyadan danışarkən siyasi publisistika ən çoxu "zorən demokratiya", "demokratiyanın güclənməsi" və hətta "demokratiya işləyirmi?" kimi mövzulardan yazırlar. Deməli, ənənəvi şəkildə başa düşdüyümüz demokratiya milli dövlətlərin inkişafı üçün heç də etibarlı söykənəcək deyil, ona heç də həmişə bel bağlamaq olmaz. Qərb ölkələrində bir çox ənənəvi mənəvi dəyərlərdən imtina edilməsi (məsələn, multikulturalizmdən), iqtisadi böhranların güclənməsi müxtəlif transmilli korporasiyalarla milli dövlətlər arasında ziddiyyətlərin üzə çıxmasına səbəb olmuşdur. Neoliberal qloballaşma ideyaları milli dövlət sərhədlərinin zəifləməsi, ərəb baharı sərhədlərinin isə əksinə olaraq genişlənməsilə müşayiət olunur ki, bu da milli dövlətlərlə müxtəlif qlobal, fövqəldövlət təşkilatları arasında ziddiyyətlər yaradır. Dünyada yaranmış yeni neoliberal qloballaşma ideyaları burada baş verən mühüm sosial-siyasi, iqtisadi və hərbi nisbətin yeni təfəkkür baxımından və yeni tarixi şəraitdən çıxış edərək qiymətləndirilməsini tələb edir.

Bu baxımdan akademik Ramiz Mehdiyevin məsələyə yanaşma metodu səciyyəvidir. Bu sahədə Azərbaycan cəmiyyəti qarşısına çıxan suallara cavab axtarışları da əhəmiyyətlidir. Müəllif müasir dünyanın belə bir dilemma qarşısında qaldığını xüsusi vurğulayır ki, qloballaşma milli dövlətlərin bundan sonra da yaşamasına qarşı necə tolerant olacaqdır, qloballaşma yeni dünya nizamını yaradan bir vasitədirmi? yaxud qloballaşma nəhayətdə milli dövlət sərhədlərini aradan qaldıracaqmı, onu zəiflədəcəkmi, milli dövlətləri transmilli şirkətlər əvəz edəcəkmi və s. 1648-ci ildən etibarən, yeni Vesttaliya sülh müqaviləsi vaxtından sonra mövcud olan milli dövlətlərin suverenliyi və müstəqilliyi məsələsi hazırda çox böyük elmi və siyasi polemikaların mövzusuna çevrilmişdir. Mövcud olan mövqeləri təhlil edən müəllif bu qənaətə gəlir ki, istənilən siyasi təsisat kimi, dövlət təsisatı da daim inkişaf edir, tarixi proseslərə uyğun olaraq formasını dəyişir. Əgər biz bu gün dövlət təsisatının transformasiyasını müşahidə ediriksə, bu dəyişiklik çox ehtimal ki, postsənaye tranziti ilə, yeni XXI əsrin sosial-iqtisadi, texnoloji və siyasi trendlərini müəyyən etmiş postsənaye inkişafına keçidlə bağlıdır. Sonuncular da öz növbəsində dövlətin vəziyyətinə təsir göstərərək, onun müasir transformasiyasının istiqamətlərini müəyyən edir. Bu da təbii prosesdir. Lakin ən çox inkişaf etmiş ölkələr (ABŞ və onun müttəfiqləri) tərəfindən həyata keçirilən siyasətin müdaxiləsi nəticəsində bu prosesin kursunun (trayektoriyasının) dəyişilməsi ona milli dövlətlərin xeyrinə olmayan tamamilə başqa məna verir.

Belə ki, milli dövlətlərin E.Tofflerdən gələn "transmilli korporasiyalar tərəfindən udulması", onların içində "əriyib getməsi" kimi iddiaları hələ indinin özündə də yeridilir, insanlara belə bir fikir aşılamağa çalışırlar ki, guya milli dövlətlərin gələcəyi və perspektivləri yoxdur, onlara görə "qlobal maliyyə, ticarət və informasiya-sənaye dövlətlərinin hərəkət azadlığını və onların hədəflərinin həyata keçirilməsində qeyri-məhdud imkanları təmin etmək üçün dünya səhnəsində siyasi pərakəndəlik hökm sürməlidir. "Zəif" ölkələrin, yeni "zəiflədilmiş", amma dövlət kimi qalan ölkələrin mövcud olması bu dairələrin hamısının həyati maraqlarına uyğundur" (ingilis sosioloqu Z.Bauman). Belə dövlətlər dünya bankları və valyuta fondları tərəfindən asanlıqla idarə oluna bilirlər. Siyasi cəhətcə müstəqil olan belə dövlətlər əslində daha güclü ölkələrin ovuna və oyunçusuna çevrilir. Meqakorporasiyaların əlinə keçmiş belə zəif millətlər bir sıra siyasi və inzibati məsələləri özləri həll edirlər. Əslində isə onların maddi bazaları ləğv edilir, suverenliyi və müstəqilliyi isə sırf deklarativ şəkildə olur. Deməli, dünyanın iri maliyyə təşkilatları nisbətən zəif milli dövlətlərin hər şeyini tədricən öz əllərində cəmləşdirir və öz iradələrini onlara qəbul etdirirlər. Bütün bunlar ona gətirib çıxarır ki, zəif milli dövlətlər güclülərin əlində bir oyuncağa çevrilir, onların müstəqillikləri və suverenliyi isə güclü maliyyə orqanlarının əlində sırf siyasi təbliğat vasitələrinə çevrilir. Ona görə də bu təhlükəni əvvəlcədən görən ümummilli lider Heydər Əliyev "güclü dövlət, güclü iqtisadiyyat" şüarlarını irəli sürmüş, ölkəmizin daxili və xarici siyasət xəttini müəyyən edərkən bunları ön sıraya keçirmişdir.

Bu münasibətlə müəllif yazır: "Azərbaycan dövlətinin inkişaf məntiqi göstərir ki, Azərbaycan 1993-cü ilin ortalarından etibarən ardıcıl surətdə güclü dövlət prinsiplərini gerçəkləşdirmək yolu ilə gedir. İqtidarda olan qrupların neoliberal demokratiya ideyalarına aludə olduqları və bu ideyaları fəal surətdə sosial praktikaya tətbiq etdikləri bəzi postsovet dövlətlərdən fərqli olaraq, Prezident Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələrək və böyük dövlət xadimi bəsirəti və uzaqgörənliyi nümayiş etdirərək güclü Azərbaycan dövləti konsepsiyasını irəli sürdü və onu ardıcıl surətdə praktikada reallaşdırmağa başladı. Sonrakı illərdə dövlətimizin bütün fəaliyyəti bu kursun düzgün olduğunu təsdiqlədi". Dövrümüzün keşməkeşli hadisələri, ölkələrin və xalqların müxtəlif çeşidli siyasi hadisələrlə üzləşməsi, İslam Şərqi ölkələrinin düşdükləri acınacaqlı vəziyyətlər bir daha sübut edir ki, güclü dövlət olmadan demokratiya proseslərinin özü də ilişib yarı yolda qalır, normal dövlət quruculuğunu həyata keçirmək mümkün olmur, insanlar xaos və başıpozuqluqla qarşılaşırlar. Deməli, güclü dövlət konsepsiyasının özü demokratiyanın qurulması yolunda çox mühüm bir vasitədir. Akademik R.Mehdiyev bu istiqamətdə xeyli nəzəri ədəbiyyatı saf-çürük edir və qeyd edir ki, bir sıra son tədqiqatlar heç də milli dövlətlərin xeyrinə deyildir (məsələn P.Drakar), amma eləlləri də vardır ki, onlara görə (məsələn S.Hantinqtan) "dünya siyasət meydanında əsas oyunçular yenə də milli dövlətlərdir... və qloballaşma milli dövlət ideyasının təməlinə əsaslanır". Güclü milli dövlət ideyası ümumdünya miqyasında terrorizmin tüğyan etdiyi bir dövrdə (xüsusən 11 sentyabr 2001-ci ildə ABŞ-da törədilən məlum terror aktı) daha kəskin bir şəkildə dərk olundu. Bu ideyanı dəstəkləyən F.Fukuyama yazır: "Gələcək dünya üçün ən vacibi dövlət qurmağı öyrənməkdir". Akademik R.Mehdiyev mövcud olan bu nəzəri müddəaları gözdən keçirir və onları əməli təhlil süzgəcindən keçirərək yazır: "Zənnimizcə, güclü dövlət dünyəvi dövlətdir. Güclü dövlət transparent dövlət idarəetmə sistemini dəstəkləmək üçün vətəndaşın demokratik hüququndan demokratiyanın ifrat həddə yuvarlanmasının və nəticədə çıxılmaz vəziyyətə düşməsinin qarşısını alan güclü hüquq mühafizə strukturları ilə birlikdə istifadə edə bilən dövlətdir. Bu gün dünyada baş verən hadisələrin nümunəsində belə qənaətə gəlmək olur ki, dövlətlə həyat prinsiplərini dövlətin əsas funksiyalarına toxunmadan vətəndaş cəmiyyəti müəyyən etməlidir. Bu zaman güc strukturlarının rolu ayrı-ayrı qrupların imtiyazlarını müdafiə etmək deyil, hüquqi təhlükəsizliyə və asayişə təminat verməkdir". Bu müddəalar eynilə məşhur ABŞ politoloqu və siyasətçisi Zbiqnev Bjezinskinin fikirlərilə üst-üstə düşür: "Dövlət - dünya sisteminin əsas vasitəsi kimi qalmasa da, davam edir, milli ərazinin ölçüləri isə, əvvəlki kimi, statusun və gücün ən əhəmiyyətli meyarı mənasını saxlayır".

Məlumdur ki, "effektiv dövlət olmadan hakimiyyəti həyata keçirmək mümkün deyil" (Hətta dövlətə münasibətdə dağıdıcı rol oynayan Dünya Bankı da bunu etiraf edir). Neoliberalların dövlət konsepsiyasında klassik liberalizmə, xüsusən də Karl Poppere müraciət xüsusi yer tutur. Çünki Popper belə hesab edirdi ki, dövlətə zəruri olduğundan artıq funksiya verməK olmaz. O, bunu "liberalizmin ülgücü" adlandırır, bununla belə, "əgər dövlət öz funksiyasını yerinə yetirməyə qadirdirsə, o istənilən ayrıca vətəndaşdan və ya ictimai təşkilatdan daha artıq hakimiyyətə malik olmalıdır" - deyə yazırdı. Dövlət mürəkkəb siyasi qurum, siyasi və hakim təsisatdır. Onun əsas funksiyası bütün cəmiyyətin xeyrinə hakimiyyətin həyata keçirilməsindən ibarətdir. Deməli, güclü dövlət olmadan vətəndaşların hüquq və azadlıqlarının qorunmasından danışmağa dəyməz. Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi konstruktiv daxili və xarici siyasət nəticəsində uğurlu islahatlar həyata keçirilir, respublikada hüquqi dövlət və vətəndaş cəmiyyəti qurulmuşdur, dövlət olmadan ictimai tərəqqi mümkün deyil, bizim dövlətimiz bir sıra xüsusiyyətlərinə görə "güclü" dövlət parametrinə uyğun gəlir". (İlham Əliyev).

Halbuki 1980-1990-cı illərdə biz "zəif dövlət" mərhələsində yaşayırdıq. Lakin ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət tamamilə dəyişdi və həyata keçirilən sosial-siyasi, iqtisadi-mədəni və s. islahatlar dövlətimizi Cənubi Qafqazın ən güclü dövlətinə çevirdi. Cənubi Qafqazın iqtisadiyyatının 75%-ni təşkil edən Azərbaycan bu gün öz iqtisadi fəaliyyətini Azərbaycandan kənarda da davam etdirir.

"Azərbaycan güclü dövlətdir" deyərkən müəllif nəyi nəzərdə tutur:

-Tam suverendir, buna görə də daxili və xarici siyasətində başqa dövlətlərdən yaxud beynəlxalq təşkilatlardan asılı deyil;

-Milli iqtisadiyyatı və istehsal sahəsi müasir texnologiyalar əsasında inkişaf edir;

-Güclü dövlət ideyasına- tolerantlığa və multikulturalizmə söykənən azərbaycançılığa malikdir;

-Elm və təhsili, milli mədəniyyəti, idman və praktik təbabəti inkişaf etdirir;

-Pensiyaçıların və aztəminatlı vətəndaşların qeydinə qalır;

-Qanuna müvafiq olaraq ictimai asayişi təmin edir;

-Dövlətin ərazi bütövlüyünü bərpa etmək üçün ordunu təkmilləşdirir və silahlı qüvvələri inkişaf etdirir;

-Dövlət maraqlarını və eləcə də vətəndaş maraqlarını ifadə edərək qeyri-hökumət təşkilatlarını dəstəkləyir;

-Dövlətin və xalqın maraqlarına uyğun gəlməyən daxili və xarici təxribatların qarşısını alır.

Bütün bunlarla yanaşı olaraq müəllif dövlət, şəxsiyyət məsələlərinə toxunaraq qeyd edir ki, "Hazırkı şəraitdə Azərbaycan cəmiyyəti şəxsiyyət və dövlət problemlərini çox cəhətdən hüquqi dövlətçilik ideyasının ənənəvi liberal interpretasiyası ilə səsləşən "güclü demokratik dövlət" ideyası çərçivəsində həll edir. Lakin fərdin maraqlarına üstünlük verən hüquqi dövlətçilik ideyasından fərqli olaraq "güclü demokratik dövlət" ideyası maraqları balansını nəzərdə tutur, şəxsiyyət öz ayrılmaz hüquqları və azadlıqları ilə birlikdə dövlətin fövqündə durmur, ümumi məsələlərin həlli prosesində tərəfdaş qismində çıxış edir. Məhz belə ideyanın reallaşdırılmasında şəxsiyyətin hüquqları və dövlət müstəqilliyinin pariteti vacibdir".

Azərbaycan dövləti milli ideyanın həyata keçirilməsi qarantıdır. Prezident İlham Əliyev demişdir: "Bizim ideologiyamız, azərbaycançılıq fəlsəfəsi bütün cəmiyyəti birləşdirir". Bu ideya Azərbaycanda yaşayan bütün xalqların mənafe və maraqlarına uyğundur. Vahid vətənpərvərlik ideyası olan azərbaycançılıq tolerantlığa, multikulturalizmə və mədəniyyətlərin qarşılıqlı inkişafına əsaslanır. Daha sonra akademik R.Mehdiyev ideya, ideologiya, dövlət ideologiyası məsələlərinin təhlilini verir və qeyd edir ki, dövlət ideologiyası hər bir güclü dövlətin vahid ideologiyasının və vahid siyasi liderin olmasını tələb edir. Vaxtilə Makiavelli və sonralar digər mütəfəkkirlər və eləcə də Hegel güclü hakimiyyət üçün "güclü əl"in olmasını zəruri sayırdılar.

Bu məsələ ilə əlaqədar olaraq akademik R.Mehdiyevin ideyaları çox səciyyəvidir. O yazır: "Heydər Əliyevin tarixi xidməti ondan ibarətdir ki, o çoxmillətli Azərbaycan dövlətinin bütövlüyünü xilas edə bildi. Heydər Əliyev anlamında "Azərbaycan milləti" niyyətlərində ortaq dövlət quruluşu məsələlərində və inkişaf strategiyasında yekdil olan, tarix, ərazi, mədəniyyət və ənənələrlə birləşən ölkə vətəndaşlarıdır. Polietnik Azərbaycan dövlətinin mahiyyəti dövlətin və vətəndaşların ümumi maraqlarını təmin etməli olan məqsədlərin vəhdətində, milli siyasi məkanın ideoloji təxribatı üçün zəruri olan bazanı yaradan inkişafın sabitliyi və səmərəliliyindədir".

Tədqiqatçıların fikrincə, ideologiya dövlətdən əvvəl gəlir. Əgər dövlət hamı, yaxud əksəriyyət tərəfindən qəbul olunan ideologiyanı qəbul edirsə, yaşayır, ona laqeyd qalırsa, onun gələcəyi təhlükə altındadır. Bütün hallarda dövlət ideologiyasının nə dərəcədə uğurlu olacağı milli siyasi liderin fəaliyyətindən asılıdır. Bu məsələ ilə əlaqədar olaraq müəllif yazır:

"XXI əsrin milli ideyasının təcəssümü olan müasir güclü Azərbaycan dövlətinin yaradılması millətin güclü liderə malik olmasının nəticəsidir. Belə fikir var ki, xalqın lideri anadangəlmə lider olmalıdır. Şəxsiyyətin bəzi fitri keyfiyyətləri bununla razılaşmağa qismən əsas verir. Bu xüsusiyyətləri biz fenomenal yaddaşa malik Heydər Əliyevin simasında görürük. Bu gün xalq milli lider mandatını, bu məsul missiyanı beynəlxalq birlik tərəfindən görkəmli dövlət xadimi kimi tanınan İlham Əliyevə etibar edib. Müasir çiçəklənən Azərbaycan əsl millət lideri kimi onun iradəsinin, zəkasının və istedadının nəticəsidir".

Yuxarıda deyilənləri yekunlaşdıraraq demək olar ki, xalqımızın əsrlərdən bəri həsrətində olduğu və bunu öz milli idealında canlandırdığı güclü dövlət ideyası bu gün ümummilli lider Heydər Əliyevin və onun siyasi varisi olan İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində bir reallığa çevrilmişdir. Bu reallığın canlı nümunəsi isə müasir, güclü və çiçəklənən Azərbaycan dövlətidir.

**Əlikram TAĞIYEV,**
**AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun "Sosial fəlsəfə" şöbəsinin baş elmi işçisi, fəlsəfə üzrə elmlər doktoru, professor.**